

**Hikmət Babaoğlu**
**siyasi elmlər doktoru, professor**

# Türk tarixi və mifoloji dünyagörüşündə atlar

əvvəli ötən sayımızda

***Hesab edirik ki, burada yenidən qısa bir xatırlatmaya ehtiyac var. Yunan mifologiyasında qanadlı atqan, su, hava və torpaqdan yaranmışdır. Burada qan qırmızı olduğu üçün atəşi simvolizə edir. Deməli, qanadlı Peqasın başlanğıcı tanrıçılıqda müqəddəs dörd ünsürlə bağlıdır. Və Buuçayın Qara ayğırından başlayır. Nə qədər cəsarətli də olsa deyəcəyik ki, Qara Ayğır da elə Peqasın arxetipidir. Çünki irəlidə bu ayğırın da uçaraq göylər hökmdarının qızının yanına getdiyini öyrənəcəksiniz.***

Qara ayğırın uçması da Qızıl-Sarı ayğırın qan, yəni od, su, hava, torpaq ritualından sonra baş tutur. Paralellərə diqqət edin. Bu ritualdan sonra Buuçayın Qara ayğırı göylərin xaqanı Kün Kaanın xidmətinə gedir(xatırlatma: Peqas da Zevsin xidmətinə getmişdi). İki xalqın mifoloji dünyagörüşündə bu qədər təsadüfi oxşarlıq ola bilməz. Bu mifoloji süjetlər ya bir-birindən alınmadır, ya da ən qədim qatlarda ortaq kökə malikdir(???!!!). Əslində, Kün Kaan6 həm də real tarixi şəxsiyyətdir, çünki türklərin nəsil şəcərəsində Oğuz xanın böyük oğludur. İkinci Ay Alp ya da Ay Kaan, üçüncü isə Yıldız Alp, ya da Yıldız Kaan. Məsələ ondadır ki, Oğuz Kaanın digər üç oğlu olan Gök Alp, Dağ Alp və Dengiz Alpdan fərqli olaraq, Gün, Ay və Yıldız alpların anaları kosmik mənşəlidir, göydən nur şəklində ağacın koğuşuna enib və bunu görən Oğuz Kaan onunla evlənib. Burada da yenə Buççayın atı ona görə uçmalı olur ki, Tanrı övladının yanına gedir. Düşünürəm ki, bu nöqtə insanın Yer planetinə gəlmə olması yaddaşına qədər enən kulminasiyadır. ***Bütün dinlər Yer planetində məskunlaşdırma aparılarkən Adəmin göydən endirildiyinə inanır və elm hələki bunun əksini sübut edə bilmir. Deməl,i idrakımızın üfüqləri olduqca dardır və yalnız məhdud çərçivədə nələrisə anlaya bilirik. Az-çox kosmoinformasiyaları isə mifologiya adlandırırıq. Halbuki mən mifologiyanı nağıl yox, bizdən əvvəlki sivilizasiyadan bizə gəlib çıxan sistemli informasiya mənbəyi kimi qəbul edirəm. Mifologiyanı bəşəriyyətin uşaqlıq dövrü adlandıranlara isə deyirəm ki, mifologiya bəşəriyyətin uşaqlıq dövrü deyil, tam əksinə, müdriklik dövrüdür. Çünki o dövrdən yaddaşımızda ilişib qalan məlumatlar hazırda elmi-texniki tərəqqi vasitəsilə reallığa çevrilir. Yenidən mövzumuza dönək..***

Qara ayğır orada Kün Kaanın qızı müqəddəs Altın Dyüstüklə (Altın Üzük) görüşməyə çalışır. İlxıya yaxınlaşan ayğırı ilxıçı tutmaq istəyir, ancaq tuta bilmir. Bu zaman Altın Üzük deyir ki, bəlkə bu atı elə Tenqri (Tanrı) ata mənim üçün yaradıb. Əlini uzadıb ona tərəf gedir. Bu zaman at da qıza yaxınlaşır. Altın Üzük atı minir. Qara ayğır yalmanının və quyruğunun tükləri ilə qızı belində möhkəm tutaraq sürətlə yerə doğru uçur. Qız gözünü açanda özünü Altay Buççayın yanında görür. Ayğır xahiş edir ki, Altın Üzük Buççayı və oğlunu diriltsin. Fikirlərini qıza belə izah edir...

**Yezeli yurt yemizilqen,**
**Yerdenq mold aydaqan,**
**Adı yaan Kaan ölgön,**
**Arqa yokto, silerdi ekeldis.**
**Öçgöndi komızatan,**

**Öçgöndi turquzatan-dep ykkam**

Çevirməsi təqribən belədir:

**Əzəli yurd yağmalandı,**
**Yerdən (örüşdən) mal aparıldı,**
**Adı yaman (adı-sanlı) Kaan öldü,**
**Başqa arxamız yoxdu, siz qadirsiniz.**
**Sönəni (ocağı) yandır,**
**Öləni (durğuz) dirilt, – deyib yalvardı.**

Bu yalvarışlardan sonra Altın Üzük Altay Buççayı və oğlunu dirildir. Onlar Aranay və Çaranaydan qisasını alır, xəyanətkar qadınları cəzalandırırlar. Altay Buççay elini başına toplayaraq dövlətini bərpa edib ömür sürür.

Dastandan göründüyü kimi, burada da at vəfalı, xilasedicidir, sadiqdir. Buççay bahadırın ən yaxın adamları ona xəyanət edir, at isə əksinə, onu və dövlətini xilas edir...

***Mən həmişə təəccüblənirdim ki, görəsən, Qurani-Kərimin "Əl-Adiyyat" surəsində nəyə görə atlar üzərinə and içilir ki, insan oğlu Allahına qarşı nankordur. Deməli, bir hikmət varmış ki, Müqəddəs Kitabda bu, yazılıbmış!***

***Beləliklə, "Altay Buççay" dastanında atla bağlı fikirləri ümumiləşdirərkən aydın olur ki, digər dastanlarımızda olduğu kimi, atlar danışa, uça, sahibini qoruya bilir və s. Ancaq belə bir mülahizə də irəli sürə bilərik ki, görünür, əslində, Kün Kaan da göydə yaşayan Tenqri ata deyil.*** Mərkəzi dövləti idarə edən xanlar xanı Bayandır xan kimi bir ulu hökmdardır. Türklərin ümumi hökmdarıdır. Altay Buççay ucqarlarda dövləti təmsil edən, amma mərkəzi dövlətə tabe olan inzibati subyekt rəhbəridir. Eynən Dədə Qorqud boylarında olduğu kimi, aşağıdan yuxarıya şaquli tabelilik əsasında mərkəzi iradəyə tabe olan türk dövlətçilik sisteminin bir nümunəsidir. Mərkəzi dövlət yardım etməklə əyalət dövlətini xilas edir. Ancaq bu prosesdə aparıcı ünsür atdır. Bu hadisə atın dövlətçilik tariximizdə nə qədər böyük rol oynadığına bir işarədir.

## "Manas" dastanında atlar

"Manas"dastanı qırğız xalqının yaratdığı və bu xalqın uzun əsrlər boyu yaşam mübarizəsini özündə əks etdirən dastandır. Bəzi araşdırmaçılar dastanda hələ hun dövrünə qədər gedib çıxan rəvayətlərin olduğunu bildirirlər. Ancaq dastanın əsas süjetini qırğızlarlaçinlilərin, daha sonra isə qırğızlarla karakitayların arasında gedən müharibələr və bu müharibələrdə Manasın qəhrəmanlıqları təşkil edir. Manasdan sonra bu milli mübarizəni onun oğlu Səmətəy, ondan sonra isə Səmətəyin oğlu Səytək aparır. Dastan ilk dəfə məşhur türkoloq Vilhelm Radloff (1837-1918) tərəfindən qeydə alınıb. Qırğızıstanın Toxmaq şəhəri ətrafında yaşayan Sarı Baxış boyuna mənsub bir manasçının ("Manas" dastanını əzbər bilən aşığa manasçı deyilir) dilindən dastanın məzmunu yazıya köçürülüb.

"Manas" dastanında da atlar qəhrəmanların əsas yoldaşlarıdır. Manasın atlarının adları Ak-Kula və Kıl Çeyrandır. Onun ən yaxın dostları olan qırx igidin başçısı Çalbayın Boz-Çolok adlı atı var. Kalmuk xanı Konurbayla savaşda Konurbay Manasın Kara-Ala adlı atını süngüləyir. Manas dərhal Sarı-Ala atına minərək döyüşü davam etdirir. Bu dəfə Manas Konurbaya hücum edərək atdan salır və onun Alqara atına sahib olur. Dastanda başqa bir maraqlı məqam ondan ibarətdir ki, savaşda və bütün yarışlarda Manasa uduzan çinlilər at yarışdırmağı təklif edirlər. Yarış başlar-başlamaz Yolayın Aç Buğdan adlı atı ilə Manasın Ak-Kula adlı atı önə keçir və yarış bu iki atın arasında davam edir. Manas atını çinlilərdən qorumaq üçün arxasınca cin əsgəri paltarı geyinmiş bir süvari salır. ***Çinlilər elə bilirlər ki, öndə gedən at çinlilərin atıdır. Ona görə dəatı gizlicə oxla vurmaq fikrinə düşmürlər. Yarışın sonuna yaxın Aç Buğdan çatlayaraq ölür. Qalib Ak-Kula olur. Qalib atı meydana gətirəndə bəlli olur ki, bu, Manasın Ak-Kulası imiş. Çinlilər at yarışında məğlub olduqlarını qəbul etməyərək savaşmağa başlayırlar. On dörd günlük savaşdan sonra Manas qalib gəlir. Buradan belə bir nəticə hasil olur ki, bəzən döyüşdən yayınmaq üçün at yarışdırarlarmış. Hansı bahadırın atı birinci gəlsə, o, döyüşün qalibi hesab olunarmış. Burada çinlilər cığallıq edərək, razılaşmanı pozur, ancaq sonunda yenə də məğlub olurlar. Bu epizod bir daha təsdiq edir ki, atlar hərb tarixinin həlledici faktoru, onun nəticələrini müəyyənləşdirən amillərdən biri olub.***



***"Alıp Manaş" dastanı Altay türklərinin dastanıdır. Digər türk dastanlarında olduğu kimi, bu dastanda da atla igidin qədəri birdir, bir-birinə bağlıdır, hətta igid ilə at bərabər tutulur ki, Alıp Manaş düşməni olan Ak Kağanın üzərinə gedəndə atı ilə özünü bərabər tutur. Ata-anasını təsəlli edərək deyir:"gÖlməyəcək at olmaz, Ak-Boz atı düşünməyin, ölməyəcək ər olmaz, Alıp Manaşı düşünməyin. Mənim Manaş adımın önünə elim Alıp sözünü əlavə edib. Əgər mən Alıp Manaşamsa, bu adı doğrultmalıyam. İllərdir Altay obalarına qan udduran Ak Kağanı öldürməliyəm..."***

## "Alıp Manaş" dastanında atlar

"Alıp Manaş" dastanı Altay türklərinin dastanıdır. Digər türk dastanlarında olduğu kimi, bu dastanda da atla igidin qədəri birdir, birbirinə bağlıdır, hətta igid ilə at bərabər tutulur ki, Alıp Manaş düşməni olan Ak Kağanın üzərinə gedəndə atı ilə özünü bərabər tutur. Ataanasını təsəlli edərək deyir:"gÖlməyəcək at olmaz, Ak-Boz atı düşünməyin, ölməyəcək ər olmaz, Alıp Manaşı düşünməyin. Mənim Manaş adımın önünə elim Alıp sözünü əlavə edib. Əgər mən Alıp Manaşamsa, bu adı doğrultmalıyam. İllərdir Altay obalarına qan udduran Ak Kağanı öldürməliyəm..."

***Alıp Manaş Baybarak bahadırın oğludur. Baybarak bahadır Alaca atının üstündə Altay ellərinə rəhbərlik edib. O qədər enlikürək olub ki, onun kürəyinin arxasına ayğırla bərabər otuz madyan yerləşərmiş. Ancaq buna baxmayaraq, belə aydın olur ki, Baybarak Alıp adına layiq görülməyib, sadəcə bahadır ola bilib. Manaş isə Alıp adına layiq görülüb. Ancaq vicdanı rahat deyil, o, bu adı doğrultmalıdır. Fikrimizcə, ordu-xalqhərbi-sosial sistemində bahadır polkovnik, Alp, yaxud Altay türklərinin tələffüzü ilə Alıp general rütbəsi hesab edilə bilər. Manaşı Ak Kağanla döyüşə aparan səbəblərdən biri də onun qızı Nazlı Xatundur. Ak Kağan qızını heç kəsə vermir, onu istəməyə gələnləri isə bir bəhanə ilə öldürür. Nəhayət, Alıp Manaş Ak-Boz atına minib, sarı ipək paltarını geyinib, yaba kimi qılıncını qurşanıb, şimşək kimi dağlarda çaxaraq Ak Kağanın üstünə gedir. Ak-Boz atın macəraları bununla başlayırg Ak Kağanın torpaqlarında xeyli çapdıqdan sonra Ak-Boz at birdən dayanır və irəliyə doğru bircə addım da atmır.***

(davamı gələn sayımızda)